

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 218 (23.129)

*15 noyabr 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul edib.

Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev deyib ki, bizim münasibətlər bir çox sahələri əhatə edir. Biz siyasi müstəvidə fəal qarşılıqlı fəaliyyət göstəririk. Qarşılıqlı etimadın səviyyəsi o qədər yüksəkdir ki, biz ikitərəfli, regional, beynəlxalq gündəliyin bütün məsələlərini müzakirə edirik. İqtisadi sahədə yaxşı göstəricilər görürük. Əmtəə dövriyyəsinin artımı buna yaxşı nümunədir. Həmçinin artıq Belarusun Azərbaycanda, Azərbaycanın isə Belarusda ticarət nümayəndəlikləri fəaliyyət göstərir. Fikrimcə, sənaye kooperasiyası müstəsna səmərəlilik nümayiş etdirir. Aleksandr Qriqoryeviçlə nəzərdə tutduğumuz layihələr gerçəkləşdirilib.

Belarusun Azərbaycandakı səfiri Gennadi Axramoviç vurğulayıb ki, biz Sizin Belarusa səfərinizə çox ciddi hazırlaşırıq. Mən düşünürəm ki, artıq imzalanmağa hazır olan razılaşmalar və layihələr əməkdaşlığımıza daha yeni dinamika verəcək. Belarus və Azərbaycan qarşılıqlı əməkdaşlıq üçün açıqdırlar. Mən məmnuniyyətlə qeyd edə bilərəm ki, həm Siz, cənab Prezident, həm də Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenko həmişə həm ikitərəfli, həm də çoxtərəfli formatdakı əməkdaşlığımızın konstruktiv təmələ əsaslanmasını və bir-birinə və hər hansı digər ölkələrə, bloklara qarşı yönəlməməsini əldə rəhbər tutursunuz.

## Heydər Əliyev Muzeyində konfrans keçirilib



*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində muxtar respublikanın orta ixtisas təhsili müəssisələri tələbələrinin iştirakı ilə "Naxçıvanda ucaldılan Dövlət Bayrağı" mövzusunda konfrans keçirilib.*

Konfransı giriş sözü ilə muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev açaraq bildirib ki, XX əsrin 90-cı illərində demokratik proseslərin önündə gedən Naxçıvan doğma Azərbaycanımızın gələcəkdə suveren, demokratik bir dövlət kimi yaşaması üçün öz qəti iradəsini göstərərək müstəqillik tariximizdə əvəzsiz rol oynayıb. Milli dövlətçiliyimizin hüquqi əsaslarının yaradılmasına məhz 17 noyabr 1990-cı ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanılıb. Həmin tarixdə ümummilli liderimizin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində dövlətçiliyimizin, müstəqilliyimizin bərpası üçün çox mühüm qərarlar qəbul edilib. Elə həmin ildə görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Ali Məclisində ucaldılıb. Naxçıvan Muxtar Respublikasının hazırkı Dövlət Bayrağı muxtar respublika Konstitusiyasının 10-cu maddəsinə görə Azərbaycan Respublikasının Dövlət Bayrağıdır.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması, eləcə də 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi Naxçıvanda dövlət atributlarına ehtiramın ən böyük ifadəsidir.

Naxçıvan Dövlət Bayrağı muzeyinin direktoru Rəmzi Hüseynov "Bayrağımız dövlətçiliyimizin və müstəqilliyimizin rəmzidir", Heydər Əliyev Muzeyinin bələdçisi Əfsanə Məhərrəmova "Bayrağımız qürur mənbəyimizdir" mövzularında çıxış ediblər.

Vurğulanıb ki, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması ulu öndərimiz Heydər Əliyevin yoluna sədaqət və sevginin təzahürüdür. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağımız milli qürurumuzdur.

Diqqətə çatdırılıb ki, 2014-cü ildən etibarən noyabr ayının 17-si muxtar respublikamızda Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir. Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur və iftixar hissləri yaşadır.

Sonra "Yüksəlişə üçrəngli yol" filmi nümayiş etdirilib, konfrans iştirakçıları Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olublar.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan şəhərində yeni ünvan lövhələri quraşdırılır

Müasir əmlak idarəçiliyində daşınmaz əmlakın vahid kadastrının tərkib hissəsi olan ünvan reyestri məlumatları mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan muxtar respublikamızda əhalisi 5 mindən yuxarı olan yaşayış məntəqələrində nəqliyyat infrastrukturu və daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi, eləcə də ünvan reyestrində müvafiq düzəliş və dəqiqləşmə işlərinin aparılması diqqət mərkəzində saxlanılır.

Bu ilin ötən dövrü ərzində ünvan lövhələri və giriş nömrə nişanlarının quraşdırılması məqsədi ilə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində və 21 küçədə ünvanların yenidən dəqiqləşdirilməsi işləri aparılıb. Uyğunsuzluq aşkar edilən küçə və məhəllələrdə daşınmaz əmlak obyektləri yenidən nömrələnib, ünvan lövhələri və giriş nömrə nişanlarının sayı müəyyənləşdirilib. Dəqiqləşmə işləri aparılan küçələrdə daşınmaz əmlak obyektlərinin ünvanlarındakı uyğunsuzluqların aradan qaldırılması üçün kameral şəraitdə ünvan xəritəsi üzərində iş aparılıb. Ünvanlarında düzəliş edilmiş daşınmaz əmlak obyektlərinə dair mülkiyyət sənədlərində müvafiq düzəlişlər edilərək təhvil verilib.

Naxçıvan şəhərinin Əziz Əliyev, Cəlil Məmmədquluzadə və Atatürk küçələrinə dair ünvan lövhələri və giriş nömrə nişanları nəqliyyat infrastrukturu obyektlərinə adların verilməsi, daşınmaz əmlak obyektlərinə ünvan nömrələrinin təyini, ünvan lövhələrinin yerləşdirilməsi qaydalarına uyğun hazırlanıb, adıçəkilən küçələrdə yeni ünvan lövhələri və giriş nömrə nişanları quraşdırılıb.

Yeni inşa olunan daşınmaz əmlak obyektlərinin sxematik planları dəqiqləşdirilib, Naxçıvan şəhərinin ünvan xəritəsinə yerləşdirilməsi və ünvan reyestrində qeydiyyata alınması təmin olunub.

Ümumilikdə, 2018-ci ilin ötən dövrü ərzində muxtar respublika üzrə yeni yaranmış 558 daşınmaz əmlak obyektinə ünvan verilib, 174 daşınmaz əmlak obyektinin ünvanında düzəliş edilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin təşəbbüsü ilə Naxçıvan şəhərindəki "Təbriz" otelində Avropa İttifaqının və BMqT-nin İnkişaf Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən "Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə potensialların artırılması" layihəsi çərçivəsində silsilə təlimlər başlayıb.***

## Silsilə təlimlərə start verilib



Layihənin məqsədi insan alveri ilə mübarizəyə və insan alveri qurbanlarının müdafiəsində uyğun yanaşmaya və ölkəmizin xüsusi ehtiyaclarının nəzərə alınması ilə imkanların gücləndirilməsinə töhfə verməkdir. Təlimlər Beynəlxalq Miqrasiya Təşkilatının insan alverinə qarşı mübarizəyə dair hazırladığı təlim vəsaiti əsasında keçirilir.

Təlimlərin ilk günü Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Elnur Zellabdinov, Tural Bayramov və Həmid Muxtarlı çıxış edərək müxtəlif mövzular üzrə tədbir iştirakçılarına ətraflı məlumat veriblər. Təlimdə tənzimlənməyən miqrasiya və ya insan alverinə baxış, beynəlxalq təriflər, milli qanunvericilik, miqrasiya məcəlləsi və milli fəaliyyət planı və digər məsələlər müzakirə olunub, praktik çalışmalar edilib. Çıxışlarda ölkəmizdə insan alverinə qarşı mübarizə sahəsində görülən işlərdən söhbət açılıb, bu sahədə mükəmməl qanunvericilik bazasının və maarifləndirmə sisteminin mövcud olduğu qeyd edilib.

Bildirilib ki, Azərbaycanda artıq uzun illərdir, insan alverinə qarşı mübarizə üzrə kompleks tədbirlər həyata keçirilir. Ölkəmizin insan alverinə qarşı mübarizəni daim yüksək səviyyədə təşkil etməsinin əyani təsdiqi olaraq bu sahədə Birləşmiş Millətlər Təşkilatının və Avropa Şurasının konvensiyaları və protokolları ratifikasiya edilib. 2014-2018-ci illər üçün milli fəaliyyət planları təsdiq olunub, bu istiqamətdə tədbirlər uğurla həyata keçirilir. Bu sahədə qanunvericilik təkmilləşdirilməklə milli istiqamətləndirmə mexanizmi çərçivəsində qəbul edilmiş normativ-hüquqi aktlara əsasən insan alveri qurbanlarının reabilitasiyası və cəmiyyətə reinteqrasiyası təmin olunub.

Təlim müddətində mövzularla bağlı iştirakçılar arasında sual-cavablar edilib, insan alverinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi yollarına dair fikir mübadiləsi aparılıb.

Təlimlər noyabrın 16-da yekunlaşacaq, sonda iştirakçılara sertifikatlar veriləcək.

Qeyd edək ki, təlimlərdə Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin əməkdaşı Könül Cəfərova və sərhəd idarəetməsi üzrə müstəqil ekspert Con Linehan iştirak edir.

✍ **Nail ƏSGƏROV**

## Məcburi dövlət sosial sığortasına cəlbolunma diqqət mərkəzindədir



"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar bu ilin 10 ayı ərzində müvafiq dövlət qurumları ilə birlikdə qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanması, yeni əmək fəaliyyətinə başlayanların sosial sığorta şəhadətnaməsi ilə təmin olunması ilə bağlı müvafiq tədbirlərin görülməsi məqsədilə monitorinqlər aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşlarının da iştirakı ilə aparılan monitorinqlər zamanı Naxçıvan Muxtar Respublikası üzrə, ümumilikdə, 673 sahibkarlıq obyektində (67 hüquqi, 606 fiziki şəxs) 498 yeni əmək müqaviləsi bağlanılmış, 1803 əmək müqaviləsində isə əməkhaqqı artırılmışdır.

Qeyd edək ki, muxtar respublika üzrə sahibkarlıq obyektlərində çalışan yeni əmək müqaviləsi bağlanılmış sığortaolunanlar "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə uyğun olaraq məcburi dövlət sosial sığortasına cəlb olunmuşlar.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***Ölkəmizin müasir sosial-iqtisadi inkişaf mərhələsində özünəməxsus yeri olan Naxçıvan Muxtar Respublikasının bütün guşələri kimi, Şahbuz rayonu da hərtərəfli dövlət qayğısı ilə yanaşı, sahib olduğu zəngin təbii şərait, mövcud resurslar sayəsində iqtisadiyyatın və sosial-mədəni sferanın müxtəlif sahələrində yeni uğurlara imza atmaqdadır. Qədim tarixi qədər müasir inkişafı ilə də diqqətçəkən Şahbuz zəhmətkeş insanlarının əməyi ilə gün keçdikcə özünün yeni növrağına qovuşur, muxtar respublikamızın abadlaşan yurd yerinə çevrilir. Şahbuz, doğrudan da, ilin bütün fəsillərində gözəldir.***



# Şahbuz yeni tərəqqi mərhələsində

Dağlıq ərazidə yerləşən Şahbuzun iqtisadiyyatı, əsasən, aqrar sahədən ibarət olsa da, burada sənaye məhsulları istehsalı, tikinti-quraşdırma işləri və sosial xidmət sahələrinin də inkişafında mühüm nəticələr əldə olunmaqdadır. Belə ki, 2018-ci ilin yanvar-sentyabr aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulu istehsalında 3,2, nəqliyyat sektorunda yük daşınmasında 1,3, informasiya və rabitə xidmətlərində isə 2,1 faiz artım əldə olunub. Eləcə də sənaye məhsulu istehsalında 0,8 faiz, əsas kapitala yönəldilən vəsaitlərdə isə əldə olunmuş 1,2 faiz artım rayon iqtisadiyyatının çoxşaxəliliyə doğru irəliləyişindən xəbər verir. Belə ki, bəhs olunan dövrdə rayonda dövlət dəstəyi ilə iki istehsal sahəsi yaradılıb, bir layihə üzrə istehsal obyektinin yaradılması davam etdirilib.

Şahbuzun torpaqları çox bərəkətli, su ehtiyatları boldur. Kəndlinin torpağa bağlanması keçmişdəkindən fərqli olaraq indi kənd təsərrüfatı məhsullarının istehsalı üzrə yaxşı nəticələr verib. Bu il də şahbuzlu əkinçi və heyvandarlar üçün bərəkətli olub. Belə ki, cari ilin 1 oktyabr tarixinədək rayonda 5 min 86 ton dənli və dənli-paxlalılar (qarğıdalısız), 15 ton dən üçün günəbaxan, 1484 ton tərəvəz, 6 min 976 ton kartof, 97 ton bostan məhsulları, 4 min 650 ton meyvə, 10,9 ton üzüm toplanılıb. Kənd təsərrüfatının əsas məşğuliyyət növlərindən olan heyvandarlıq sahəsi üzrə göstəricilər də ürəkaçandır. Belə ki, 2018-ci ilin yanvar-sentyabr aylarında rayonda diri çəkidə 2 min 672 ton ət, 12 min 601 ton süd istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı üzrə 1,4, süd istehsalı üzrə isə 1,2 faiz çoxdur.

Bu dövrdə həyata keçirilən tədbirlər tikinti-quruculuq sahəsində də inkişafı şərtləndirən əsas amillərdən olub. Belə ki, cari ilin yanvar-sentyabr aylarında Şahbuz rayonunda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 20 milyon 321 min 300 manat vəsait yönəldilib ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 1,5 faiz artaraq 18 milyon 997 min 700 manat təşkil edib. Bu dövrdə 4 müxtəlif təyinatlı obyekt tikilib və ya əsaslı təmir olunub, 8 müxtəlif təyinatlı obyektin tikintisi və ya yenidən qurulması davam etdirilib. Əhali gəlirlərinin artması və həyat səviyyəsinin yüksəlməsi fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. Cari ilin yanvar-sentyabr aylarında rayonda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 5006 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da ötən ilin müvafiq dövründəki göstəricidən çoxdur.

İnsan amilinin hər zaman üstün tutulması istər iqtisadi, istərsə də sosial-mədəni sahələrdə öz nəticəsini göstərir. Əhalinin həyat səviyyəsi göstəricilərinin artması, xidmətlərin keyfiyyətcə yaxşılaşması Şahbuzda insan inkişaf indeksinin də yüksəlməsinə təsir edən əsas amillərdəndir. Belə ki, cari ilin yanvar-sentyabr aylarında rayonda təkcə informasiya və rabitə xidmətlərinin dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 1 milyon 734 min 700 manat olub ki, bunun da 90,9 faizi mobil rabitənin payına düşür. Eləcə də təhlil olunan dövrdə sərnişin nəqliyyatı üzrə əldə olunmuş 1,7 faizlik artım rayonda əhali mobilliyinin əsas göstəricilərindəndir. Badamlı kəndində avtomobil yolunun yenidən qurulması Şahbuzda nəqliyyat xidməti sahəsində işlərin daha da genişləndirilməsinə imkan verəcəkdir.

Əhali məşğulluğu həmişə öz aktuallığını qoruyan məsələlərdəndir. Məhz məşğul əhali rayonun iqtisadi resurslarından daha səmərəli istifadə olunmasında əsas amillərdəndir. Bu baxımdan Şahbuzda sahibkarlığın müxtəlif növlərinin inkişaf etdirilməsi və yeni iş yerlərinin yaradılması da diqqət mərkəzində saxlanılır. Cari ilin yanvar-sentyabr aylarında Şahbuz rayonunda açılmış 103 yeni daimi iş yeri əhali gəlirlərinin artmasında diqqətçəkən cəhətlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası üzrə həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir. Görülən məqsədyönlü işlər sayəsində rayonda işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə geniş imkanlar yaranıb. Əhali gəlirlərinin formalaşmasında əməkhaqqı səviyyəsi də mühüm rol oynayır. Bu baxımdan Şahbuzda muzdla işləyənlərin orta aylıq əməkhaqqı səviyyəsindəki artımı qeyd etmək olar. Belə ki, cari ilin yanvar-avqust aylarında rayonda orta aylıq əməkhaqqının səviyyəsi 378,9 manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur.

Səmərəli məşğulluq imkanlarının yaradılması rayon əhalisinin alıcılıq qabiliyyətinin yüksəlməsi, əmtəə dövriyyəsi həcminin genişləndirilməsi ilə nəticələnib. Bəhs olunan dövrdə Şahbuzda pərakəndə əmtəə dövriyyəsi həcminin 40 milyon manatdan artıq olması bu qənaətə gəlməyə imkan verir.

Uğurlarla dolu daha bir il də arxada qalmaqdadır. Ölkəmizin qüdrəti artdıqca onun hər bir guşəsində yaşayan insanların qurub-yaratmaq həvəsi, xoşbəxt gələcəyə olan ümidləri daha da dərinləşir. Ucqar dağ rayonu Şahbuzun da hər bir sakini indi firavan həyat yaşamaqla bu gözəlliyi yaradanları minnətdarlıqla xatırlayır, bu yurd yerinin daha da abadlaşması istiqamətində fəallıqla iştirak edirlər.

Əli CABBAROV

# Sahibkarlar üçün hərtərəfli şərait yaradılıb

***Muxtar respublikada iqtisadi və sosial sahələrin inkişafını təmin etmək üçün tədbirlər cari ilin ötən dövründə də davam etdirilmiş, dinamik inkişafa nail olunmuş, sənaye və kənd təsərrüfatı sahələrində 31 istehsal sahəsinin yaradılması başa çatdırılmışdır.***

Daxili bazarın qorunması, antiinflyasiya tədbirlərinin gücləndirilməsi, yerli istehsalın və satışın stimullaşdırılması, məhsul istehsalçılarına hərtərəfli şəraitin yaradılması istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almış, 3400 çeşiddən çox ərzaq və qeyri-ərzaq məhsullarının qiymətləri təhlil olunmuş, 581 halda ərzaq məhsullarından nümunələr götürülərək Mərkəzi Qida Sınaq Laboratoriyasında təhlil edilmiş, 12 mənşə sertifikatı verilmişdir.

İstehsalçıların öz məhsullarını birbaşa bazara çıxarmasına kömək məqsədilə kənd təsərrüfatı və emal sənayesi məhsullarının yarmarkaları təşkil olunmuş və həmin məhsullar 25 faiz ucuz qiymətlərlə əhaliyə təklif edilmişdir. Sahibkarların hüquqlarının müdafiəsi də diqqətdə saxlanılmış, "Qaynar xətt" vasitəsilə 511 sahibkarlıq subyekti ilə maarifləndirmə istiqamətində iş aparılmış, sahibkarların problemləri ilə bağlı sorğular qanunvericiliyə uyğun həll edilmişdir.

Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin əlaqələrinin inkişaf etdirilməsi, istehsal olunan məhsulların ixrac imkanlarının artırılması, xarici ölkələrdə tanıdılması məqsədilə Avropa İttifaqı, Rusiya, Fransa, Türkiyə və Qazaxıstan kimi ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilmiş 5 beynəlxalq tədbirdə muxtar respublikadan 36 sahibkarlıq subyektinin 56 nümayəndəsi iştirak etmişdir.

Naxçıvan Biznes Mərkəzi tərəfindən muxtar respublikada xalq yaradıcılığı sahələrinin inkişafı, sənətkarların fəaliyyətlərinin stimullaşdırılması və iş şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmiş, 23 adda 525 manat dəyərində əl işi və sənət əsərləri qəbul edilmiş, 32 adda 313 manat dəyərində əl işi satılmışdır.

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti*

# Havuş kəndində 4 hektar sahədə yeni cəviz bağı salınıb

Muxtar respublikamızda dağ və sərhəd kəndlərinin sosial-iqtisadi inkişafına göstərilən diqqət və qayğıdan Şərur rayonunun Havuş kəndinə də pay düşüb. Son illər kəndə gedən avtomobil yolunun təmir olunması bu yurd yerinə gediş-gəlişi xeyli asanlaşdırıb.

Havuşluların əsas məşğuliyyəti heyvandarlıq, arıçılıq və bağçılıqdır. Yaşlı sakinlərin dediyinə görə, kənddə bir vaxtlar cəvizliklər çox geniş ərazini tuturdu. Ötən əsrin səksəninci illərinin sonu, doxsanıncı illərinin əvvəllərində qış aylarında mənzilləri qızdırmaq üçün cəviz ağaclarının da çoxu kəsilərək yandırılmışdır. Ötən illər ərzində muxtar respublikamızda aparılan yaşıllaşdırma tədbirlərinin bir hissəsi kimi Havuşda da yeni bağların salınması nəticəsində artıq cəviz ağaclarının sayı xeyli artıb. Kənddəki həyətyanı sahələrin də hər birində 4-5 köklü cəviz ağacı vardır.

Havuşda yetişən cəvizin ləpələri həm dadlı, həm də yağlı olur. Ona görə də kənddə cəvizliklərin sahəsini daha da genişləndirmək nəzərdə tutulmuşdur. Bunun üçün bu günlərdə daha 4 hektar sahədə yeni cəviz bağı salınıb. "Göl yeri" deyilən geniş ərazidə salınan bağa iqlimə uyğun 390 kətanköynək cəviz tingi, hər tingin dibinə isə iki cəviz toxumu basdırılıb. Toxumların basdırılması yeni tinglərin yetişdirilməsi məqsədi daşıyır. Bu tədbirdə rayonun əksər kəndlərindən könüllü gəlmiş şərurlular da həvəslə çalışıblar.

Qeyd edək ki, yeni cəviz bağının salındığı ərazi "Çıraxana" deyilən gur bulağın suyu ilə suvarılır. Gələn yazda Havuşda yeni cəviz bağlarının salınması, bu bağların ümumi sahəsinin 20 hektara çatdırılması nəzərdə tutulub.

Elman MƏMMƏDOV

# Heyvandarlığın inkişafı diqqət mərkəzindədir

*"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsinə öz töhfəsini verməkdədir. Görülən tədbirlər sırasında kənd təsərrüfatının mühüm sahələrindən biri sayılan heyvandarlığın inkişafı da xüsusi yer tutur. İlbəil bu sahəyə maliyyə dəstəyi gücləndirilir, otlaq sahələri genişləndirilir, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalandırmanın tətbiqinə diqqət artırılır.*



Bunu cari ilin ötən ilk 9 ayında görülən işlər də təsdiq edir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bəhs olunan dövrdə təsərrüfat subyektlərinə dövlət maliyyə dəstəyinin göstərilməsi istiqamətində təkcə 2018-ci ildə bank və kredit təşkilatları tərəfindən bu sahəyə 3 milyon 872 min 600 manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 3,5 dəfə çoxdur. Digər tərəfdən cari ilin ötən ayları ərzində heyvandarlıq təsərrüfatlarının yaradılması da davam etdirilib.

Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq Süni Mayalanma Mərkəzinin yaradılması davam etdirilir. Hazırda muxtar respublikada 23 belə məntəqə fəaliyyət göstərir.

Son illərdə Ordubad rayonunda da heyvandarlığın inkişafı sahəsində mühüm nəticələr əldə olunub. Rayon İcra Hakimiyyətindən öyrəndik ki, cari il oktyabrın 1-nə olan məlumata görə, rayonda iribuynuzlu (inək və camış) 10 min 686 baş, xırdabuynuzlu (qoyun və keçi) heyvanların sayı 74 min 606 baş təşkil edir. Ötən ilə nisbətən iribuynuzlularda 250, xırdabuynuzlularda isə 1534 baş artım olub. Qışa yem tədarükü üçün 677 hektar sahədə yem bitkisi əkilib və 2 min 38 ton məhsul əldə edilib. Həmçinin 898 hektar sahədən arpa biçilib, ümumilikdə, 2 min 523 ton məhsul yığılıb. Rayonun Dırnıs, Xanağa, Kotam, Aza, Düylün, Biləv, Bist, Xurs, Azadkənd, Sabirkənd və başqa yaşayış məntəqələri bu sahənin inkişafında mühüm rol oynayır. Nəsirvaz kəndindən Rövşən Almuradov, Biləvdən Əfqan Quliyev, Azadan Zeynalabidin Əhmədov, Dırnısdan Gülməmməd Məhərrəmov, Azadkənddən Allahverdi Allahverdiyev kimi fermerlər heyvandarlığın inkişafına öz töhfələrini verməkdədirlər. Belə zəhmətkeş təsərrüfat sahiblərindən biri də Bist kənd sakini Tahir Qəziyevdir. O, bizimlə söhbətində bildirdi ki, dövlətimizin heyvandarlığın inkişafına göstərdiyi diqqət və qayğı ona öz təsərrüfat sahəsini daha da genişləndirməyə imkan verib. Belə ki, uzun illərdir, bu sahə ilə məşğul olan müsahibim 2012-ci ildə götürdüyü güzəştli kredit hesabına heyvandarlıq təsərrüfatını xeyli genişləndirib. 30 xırdabuynuzlu heyvan alan Tahir Qəziyev bu gün onların sayını 104-ə çatdırıb. Sahibkar təsərrüfat sahəsindən əldə etdiyi vəsait hesabına 4 iribuynuzlu mal-qara da alıb. İstehsal etdikləri ət, süd məhsullarını dükan-bazarlara da çıxaran sahibkar özünə xeyli alıcı toplayıb. Bildirdi ki, hazırda qış üçün yem tədarükü ilə məşğuldur və ona məxsus olan 4 hektar torpaq sahəsinin otunu biçib. Fermer ona da vurğuladı ki, gələcəkdə də dövlətin bu sahəyə göstərdiyi qayğıdan səmərəli istifadə edəcək, fəaliyyətini daha da genişləndirəcək.

Rayonda baytarlıq işinin təşkilinə də xüsusi diqqət yetirilir. Təhlükəli yoluxucu xəstəliklərin vaxtlı-vaxtında qarşısının alınması üçün bir sıra işlər davam etdirilir. Ümumiyyətlə, 2018-ci ilin ötən ayları ərzində 1777 baş iribuynuzlu mal-qara, 1102 baş xırdabuynuzlu müalicəyə cəlb olunub, 4843 baş iribuynuzlu mal-qarada, 10766 baş xırdabuynuzluda bruselyoz xəstəliyinin diaqnostikası məqsədilə qan nümunələri götürülərək serolozi müayinə edilib. Bu müddətdə 98 min 333 kvadratmetr sahəni əhatə edən 891 obyektdə dezinfeksiya işləri yerinə yetirilib.

Hazırda heyvandarlığın inkişafına kompleks yanaşma bu sahədə müsbət nəticələrin əldə olunmasına imkan verir. Həyata keçirilən tədbirlər bundan sonra da daxili bazarın keyfiyyətli heyvandarlıq məhsulları ilə təmin olunmasına əminlik yaradır.

Güntac ŞAHMƏMMƏDLİ

# "Virtualnakhchivan.az" internet portalının təqdimatı olub

*Noyabrın 14-də Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunda "virtualnakhchivan.az" internet portalının təqdimatı keçirilmişdir.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsi müdirinin müavini Sahir Rüstəmov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar turizmi inkişaf edən sektora çevirmişdir. Muxtar respublikada tarixi və mədəni abidələr bərpa olunmuş, yeni otel və istirahət mərkəzləri tikilmiş, ən ucqar yaşayış məntəqələrində müasir tələblərə cavab verən istirahət, ticarət, xidmət və səhiyyə ocaqları istifadəyə verilmiş, avtomobil yolları yenilənmişdir. Muxtar respublikada təhlükəsiz həyat şəraiti yaradılmışdır.






Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsinə, turizm potensialından tam istifadə olunmasına yeni imkanlar yaradır. Turizm sahəsində müasir idarəetməni həyata keçirmək üçün də tədbir görülmüş, Turizm Departamenti, Naxçıvan Turizm İnformasiya Mərkəzi yaradılmış və fəaliyyətləri təmin edilmişdir. Muxtar respublikada turizm sektorunun peşə və ixtisas səviyyəsi yüksək olan kadrlarla təminatı da diqqətdə saxlanılmışdır. Belə ki, Naxçıvan Dövlət Universitetində və "Naxçıvan" Universitetində Turizm və otelçilik ixtisasları üzrə ali təhsilli kadrlar hazırlanır.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən hazırlanan və bu gün təqdimatı keçirilən "virtualnakhchivan.az" internet portalı muxtar respublikanın turizm imkanlarının tanıdılmasında və təbliğində görülən işlərin davamıdır. Portal muxtar respublikamızın görməli yerləri, tarixi abidələri, müasir turizm və sosial-mədəni infrastrukturu ilə bağlı təbliğat işinin aparılmasına mühüm töhfədir. Ona görə də portalın imkanlarından istifadə olunmalı, muxtar respublika gəncləri tərəfindən sosial şəbəkələrdə paylaşılmalıdır.




Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin direktoru Əkbər Novruzov qeyd etmişdir ki, muxtar respublikaya turistlərin cəlbi baxımından yaradılmış infrastrukturun və geniş turizm potensialının təbliği mühüm amildir. Turizm Departamentinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Turizm İnformasiya Mərkəzində təbliğat işi istiqamətində ardıcıl işlər görülür, turistlərin sorğuları cavablandırılır, internet resurslarından istifadə etməklə muxtar respublikanın turizm potensialı tanıdılır. Bu gün təqdimatı keçirilən "virtualnakhchivan.az" internet portalı muxtar respublikanın turizm potensialının təbliğində yeni mərhələnin başlanğıcı olacaq və Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı istiqamətində mühüm rol oynayacaqdır.

"Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktor əvəzi Kamil Yusifov çıxışında demişdir ki, "virtualnakhchivan.az" internet portalının hazırlanmasının "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinə həvalə edilməsi göstərilən yüksək etimadın nümunəsidir. İnternet portalı beş min ildən artıq yaşı olan qədim Naxçıvanımızı müasirliklə birləşdirərək, turistlərə Naxçıvan Muxtar Respublikasını virtual şəkildə tanıma imkanı yaradır. Kamil Yusifov muxtar respublikada özəl sektora göstərilən dəstəyə görə "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmiş, bundan sonra da göstərilən etimadı doğrultmağa çalışacaqlarını vurğulamışdır.

Sonra internet portalı barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan, ingilis və rus dillərində hazırlanan portal qədim diyara səyahət etmək istəyənlər üçün ideal internet resursudur. Naxçıvan Muxtar Respublikasının ərazisində mövcud olan 25-ə yaxın ölkə və dünya əhəmiyyətli abidə və kompleksi 360 dərəcə virtual panoram səyahət texnologiyası ilə qarış-qarış gəzib seyr etmək, videoçarx, fotoqalereya nümunələri ilə izləmək mümkündür. Muxtar respublikadakı otellərin, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin də görüntülərinin yer aldığı internet resursunda 650-dən çox fotosessiya, 30-dək videoçarx, eyni zamanda Azərbaycan, ingilis və rus dillərində informasiya mətnləri yerləşdirilmiş, həmin müəssisələrə virtual səyahət etmək imkanı yaradılmışdır. Naxçıvan şəhərindən çəkilmiş 600-dən çox foto və videoçarxların yerləşdirilməsi portal vasitəsi ilə muxtar respublika paytaxtına interaktiv gəzinti imkanı yaratmışdır. İnternet resursunda, həmçinin interaktiv xəritə vasitəsilə dəqiq lokasiyası işarələnmiş məntəqələrə keçid də mümkündür.

**"Şərq qapısı"**

# Yazıçı və şairlərlə görüş

***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin və Kəngərli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Evində rayon ictimaiyyəti ilə muxtar respublikada yaşayıb-yaradan yazıçı və şairlərin görüşü və cari ildə çapdan çıxmış yeni kitabların təqdimatı keçirilib.***

Tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Hacırəddin Mehbalıyev açaraq muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafında həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb.

Qeyd olunub ki, Naxçıvan şəhəri, həmçinin muxtar respublikamızın bütün rayon mərkəzləri və kəndlərimiz gündən-günə abadlaşır, gözəlləşir, çox böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Muxtar respublikamızın belə uğurlu inkişafı hər bir naxçıvanlını ürəkdən sevindirir, qurub-yaratmağa həvəsləndirir. Bu proses həm də yaradıcı sənət adamlarının ilham mənbəyinə çevrilib.



Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair Asim Yadigar çıxış edərək bildirib ki, görüşün keçirilməsində məqsəd son illərdə muxtar respublikada geniş vüsət alan inkişaf və tərəqqi haqqında söhbət açmaq, bu prosesin ədəbiyyatda salnaməsini yaradan qələm sahiblərinin fəaliyyəti barədə danışmaq, onların işıq üzü görən kitablarını rayon ictimaiyyətinə təqdim etməkdir.

Vurğulanıb ki, 14 il bundan əvvəl yaradılan, muxtar respublikamızın ən gənc rayonu hesab olunan Kəngərli rayonunun timsalında biz qədim diyarımızda həyata keçirilən böyük uğurlu siyasətin aydın mənzərəsini görə bilərik. Muxtar respublikamızın hər bir bölgəsi kimi Kəngərli də böyük abadlıq, quruculuq işləri ilə əhatə olunub.

Sonra söz tədbirdə iştirak edən qələm sahiblərinə verilib. Muxtar Məmmədoğlu, İbrahim Yusifoğlu, Əbülfəz Ülvi, Elxan Yurdoğlu, Zeyqəm Vüqar, Yadulla Zaman muxtar respublikada yaradıcı insanlara göstərilən dövlət qayğısından danışıblar. Qədim diyarımızın bugünkü inkişaf və tərəqqisinin onlar üçün ilham mənbəyi olduğunu və bunu öz əsərlərində qələmə aldıqlarını qeyd ediblər.

Tədbirdə muxtar respublikada yaşayıb-yaradan yazıçı və şairlərin 2018-ci ildə işıq üzü görmüş kitabları barədə söhbət açılıb və həmin kitablar iştirakçılara təqdim edilib.

**Xəbərlər şöbəsi**

# Ustad dərsləri maraqla qarşılanıb

*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ordubad Şəhər Uşaq Musiqi Məktəbində rayonun uşaq musiqi məktəblərinin müəllim və şagirdləri üçün ustad dərsləri keçilib.*

Dərslərin keçilməsində əsas məqsəd tədrisin keyfiyyətinin yüksəldilməsinə, şagirdlərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsinə nail olmaqdır.

Muxtar respublikanın tanınmış müəllim və musiqiçiləri ustad dərslərində müxtəlif musiqi alətlərində ifaçılıq sirlərindən, musiqi janrlarından bəhs ediblər.

Dərslər başa çatdıqdan sonra suallar cavablandırılıb.

**Əli RZAYEV**

# Ali təhsil ocağında görkəmli rəssamın xatirəsi anılıb



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 17 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq Naxçıvan Dövlət Universitetində rəssamın xatirəsinə həsr olunmuş sərgi təşkil edilib.***

Sərgidə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov yaradıcılığında realizmə üstünlük verən, dünyanın mütərəqqi ənənələrini davam etdirən, boyakarlığın müxtəlif janrlarında ciddi yaradıcılıq uğurları ilə seçilən rəssam haqqında danışıb.

Təsviri incəsənət kafedrasının müdiri, professor, Xalq rəssamı Hüseynqulu Əliyev rəssamın həyat və yaradıcılığına nəzər salaraq bildirib ki, Şərur rayonunda anadan olan rəssam ilk təhsilini Cəlilkənd məktəbində alıb, sonra İrəvan Müəllimlər Seminariyasında oxuyub. İki il Moskvadakı Rəssamlıq Akademiyasında təhsil alan İbrahim Səfiyev 1917-ci ildə Naxçıvana qayıdıb, burada rəssamlıqla məşğul olub. Kiçik yaşlarından rəsmə həvəs göstərən rəssamın 12 yaşında "Araz balıqçıları" adlı ilk rəsm əsərini yaratdığı diqqətə çatdırılıb.

Vurğulanıb ki, 1923-cü ildə İstanbulda İncəsənət Akademiyasını bitirən rəssam ömrünün sonuna kimi Türkiyədə yaşayıb. Professor qeyd edib ki, Azərbaycan rəsm sənətinin görkəmli nümayəndəsi İbrahim Səfiyevin adı əbədiləşdirilib, Türkiyə Respublikasının İstanbul şəhərindəki İstiqlal prospektində onun yaşadığı binanın üzərinə xatirə lövhəsi vurulub.

Sonda sərgiyə baxış olub.

Qeyd edək ki, müəllim və tələbələrin əl işlərindən ibarət sərgidə 30-dan artıq rəsm əsəri nümayiş olunub.

**Səadət ƏLİYEVA**

# Sosial qayğıya ehtiyacı olan uşaqlar diqqətdə saxlanılır

Naxçıvan Muxtar Respublikasında uşaqlarla bağlı dövlət siyasəti uğurla həyata keçirilir. Muxtar respublikamızda yaşayan, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlar daim diqqət mərkəzində saxlanılır, onların sağlamlığının qorunmasına, təhsilinə, təlim-tərbiyəsinə xüsusi diqqət və qayğı göstərilir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın ekspert qrupu tərəfindən uşaq hüquqlarının qorunması ilə əlaqədar təhsil müəssisələrində, eləcə də valideyn himayəsindən məhrum uşaqların yaşadıqları ailələrdə mütəmadi olaraq monitorinqlər keçirilir, onların yaşayış şəraiti, təhsil hüquqlarının, sağlamlıqlarının qorunması ilə maraqlanılır, lazımi köməkliklər göstərilir.

2018-ci il noyabrın 8-də müvafiq komissiyanın ekspert qrupu tərəfindən Sədərək rayonunun Sədərək kəndində yaşayan valideyn himayəsindən məhrum uşağın evində monitorinq keçirilib, yaşayış şəraiti ilə tanış olunub. Həmin monitorinqdə qeyd olunanlar nəzərə alınaraq, dünən Naxçıvan Muxtar Respublikasının Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Sədərək Rayon İcra Hakimiyyətinin nümayəndələri valideyn himayəsindən məhrum uşağın yaşadığı aztəminatlı Həsənovlar ailəsində olublar.

Aztəminatlı ailənin üzvlərinə səyyar tibbi xidmət göstərilib, ehtiyaclarına uyğun qış geyimləri, məişət əşyası və ərzaq payı verilib.

Sonda uşağın qəyyumu olan bibisi dövlətimiz tərəfindən onlara göstərilən dəstəyi yüksək qiymətləndirib, bu diqqət və qayğıya görə öz minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

Xalq təqvimi

# Xəzəl ayı və ya naxırqoyan



***Azərbaycan xalq təqvimində hər bir dövr fenoloji dəyişiklik və görüləcək işlərə uyğun olaraq xüsusi adlarla adlandırılıb. Noyabr ayı görüləcək işlərə görə ilin son ayı hesab edilir, çünki ilin son ayı olan dekabrda görüləcək işlər qalmadığı üçün günlər yeksənəq keçir.***

Xalq təqvimində noyabr ayına "xəzəl ayı" da deyirlər. Payızın orta ayında bağ-bağçada ağacların yarpaqları sarı-qırmızı rəngə boyanır. Maraqlıdır ki, saralmış yarpaqlar son anda elə bil ağacdan qopmaq istəmir, ona görə də qıvrılıb sanki boru əmələ gətirir. Payızda əsən külək "xəzan küləyi" adlanır. Bu külək əsdikdə saralmış yarpaqların əksəriyyəti tökülür. Suyu daha çox sevən ağacların yarpaqları bəzən yaşıl qalır. Bəzən isə qısamüddətli şaxtadan sonra Günəş şüası düşən kimi həmin yaşıl yarpaqlar da tökülməyə başlayır.

Yarpaqlar saraldımı, meyvə bağlarında tinglərin əkilməsinə başlanılır. Bərk şaxtalar düşüb torpaq donana qədər ting əkilməsi davam edir.

Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Naxçıvan ərazisində də kənd təsərrüfatında üzümçülük xüsusi yer tutur. Kəskin kontinental iqlim şəraitində bu diyarda üzümün becərilməsi əlavə zəhmət tələb edir. Naxçıvan Azərbaycanda yeganə bölgədir ki, noyabrda üzüm tənəklərini, nar və əncir kollarını torpaqla basdırırlar ki, qışda soyuq almasın. Sirab kəndində 1950-ci illərin əvvəllərində 140 yaşında vəfat etmiş, yüksək dini təhsil görmüş, aforizmləri bu gün də yaşayan Hacı Molla Əli isə qışda ərik ağacını da basdırmağı tövsiyə edərdi.

Üzüm kollarını basdırmaq üçün oktyabr ayının ikinci yarısında üzüm bağları suvarılır. Bu bitkini yayın axırı, payızın əvvəlində suvarmazlar, çünki bu dövrdə su içən bağ yenidən inkişafa başlayır, tənəyin çubuqları yetişib qızarmır. Bu cür tənək kollarının çubuqlarını basdırmadıqda daha tez soyuq alır, basdırıldıqda isə yetişməyən çubuqlar torpağın altında çürüyür. Tənəkləri basdırmaq üçün çubuqlar bir yerə toplanıb yerə yatırılır, əvvəlcədən suvarılan nəm torpaq barata halda götürülüb kolların üzərinə qoyularaq kolun çubuqları tamamilə örtülür. Həyətyanı sahələrdə basdırılacaq üzümün yarpaqlarının heyvanlar tərəfindən yeyilməsinin qarşısı alınmalıdır. Çünki tənəkləri quru çubuqlarla basdırmaq çətin olur. Digər tərəfdən toyuq-cücədən qorumaq üçün basdırılacaq tənəklərin üzərinə çöldən yığılıb gətirilmiş dəvətikanını (buna el arasında "göy tikan" da deyirlər) qoyub torpaqlayırlar.

Heç şübhəsiz ki, Naxçıvanın sərt iqlimi Naxçıvan əhalisinin dözümlü, mətin olmasına təsir etmişdir. Naxçıvan əhalisi qışa ciddi hazırlaşır, amansız qışın heç kəsə güzəşt etməyəcəyini yaxşı bilir. Xalq arasında belə bir rəvayət vardır ki, Naxçıvanın mülayim keçən bir qışında Qarabağdan olan tərəkəmə öz sürüsü ilə Naxçıvana gəlir. Görür ki, heyvan bəsləyib artırmaq üçün çöldə bol yem, yumşaq hava, bir sözlə, hər cür şərait var. Belə bir əlverişli məkanda yerli əhali arasında heyvandarlıqla məşğul olmayanları tənbəl və bacarıqsız hesab edir. Növbəti il sürüsünü ikiqat artıraraq qışlamaq üçün yenidən Naxçıvana gəlir. Burada qış başlayır, nə başlayır. İsti tövləsi və yem ehtiyatı olmayan tərəkəmənin bütün heyvanları aclıqdan və soyuqdan qırılır. Yapıncısını çiyninə ataraq: "Əşi, bunlar bilirmişlər ki, nə edirlər", – deyə kor-peşman çıxıb gedir.

Noyabr ayının yarısından sonra qovurma mövsümü başlayır, çünki həyət-bacada ot tükənir, xəzəl də ya mal-qara, qoyun-quzu tərəfindən yeyilir, ya da yağıntı altında xarab olur. Ev heyvanlarının yem ehtiyatı azaldığı, bir də havalar çox soyuyacağı üçün qovurmanı bu vədə edirlər. Qovurulacaq heyvanların ciyərini qovuran zaman yaxın qohumlar qonaq çağırılır, qovurmanın təngovu (cığatay) qonşulara paylanılır.

Noyabrın axırı el arasında "naxırqovan", "naxırtökən", "naxırqoyan" adlanır. Havaların soyuması ilə əlaqədar naxırçı malı daha çölə aparmır, "naxırı yerə qoyur". Yaşlı heyvandarlar söyləyirlər ki, belə vaxtlar malı çöldə açıq havada saxlamazlar. Bəzi yaşlı informatorlar bu dövrü "danaqıran" adlandırır. Etnoqraflar isə "danaqıran"dan yazda novruzgülü açan dövr kimi bəhs edirlər.

Bu dövrü el arasında payızın "qəpsi" (qəfsi) də adlandırırlar. Bütün işlər payızın qəpsinə qədər yekunlaşmalıdır, çünki havalar hər gün bir qədər soyuyur, hər dəqiqə qarın yağması, yolların bağlanması mümkündür. Müxtəlif səbəbdən dənini üyüdüb, qış tədarükü görməyənlər əl-ayaq edirlər. El arasında belə bir deyim vardır: "Ülkər batdı, dəyirman yatdı". Ülkər həm Buğa bürcündəki yeddi kiçik ulduz topasına deyilir, həm də, sadəcə, ulduz sözünün sinonimi kimi işlədilir. Dahi Azərbaycan şairi Səməd Vurğun yazırdı:

*Göydən karvan-karvan ulduzlar köçür,*
*Hər kəs öz baxtına bir ülkər seçir.*

Payızın qəpsində havalar soyuyur, səmanı buludlar örtür, günlərlə ulduzlar görsənmir, axar sular donduğu üçün su dəyirmanları da yatır. Ona görə də atalarımız deyiblər ki, hər işin qeydinə qal vədəsində.

**Zaleh NOVRUZOV**

*9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunmuş şahmat üzrə muxtar respublika turnirinə yekun vurulub.*

# Şahmat turniri başa çatıb



Naxçıvan Şahmat Mərkəzində təşkil olunan turnirdə şəhər və rayonları təmsil edən 83 şahmatçı mübarizə aparıb. İsveçrə sistemi üzrə keçirilən yarış 9 turdan ibarət olub.

Turnirin son turu daha maraqlı olub. Belə ki, liderlər cədvəlində qərarlaşan beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev (2386) və FİDE ustası Pərviz Qasımov (2303) müvafiq olaraq Sadiq Qarayev (1740) və Əli Məmmədovla (1550) qarşılaşıblar. Bu tura kimi aktivlərində 7,5 xal olan hər iki zəka sahibi son turu da qələbə ilə başa vurub. Bununla da 8,5 xal toplayan şahmatçılar 1 və 2-ci yerləri bölüşüblər. Turnirin 2 nömrəli şahmatçısı, beynəlxalq usta Talıb Babayev (2333) son turda Ərturan İsmayılovu (1428) sınağa çəkib və qələbə qazanaraq 7 xalla turnirin üçüncüsü olub.

6,5 xal toplayan Elmar Süleymanlı, Sadiq Qarayev, Zahid Allahverdiyev və Tural Zeynalov 4-7-ci yerləri bölüşüblər.

Veteran şahmatçılar arasında Akif Əliyev (1536) 6,5 xalla qalib adını qazanıb.

Ən yaxşı qadın zəka sahibi adına isə Nəsrin Babayeva (1392) layiq görülüb. O, turnir ərzində 6 xal toplamağa müvəffəq olub.

Bununla yanaşı, turnirdə 4 yaş qrupu üzrə qaliblər (oğlan və qız şahmatçılar) mükafatlandırılıblar. Belə ki, 8, 10, 12 və 14 yaşlı oğlanların mübarizəsində müvafiq olaraq Ramal Həsənov (1085), Zaur Babayev (1302), Seyid Hüseyn (1491) və Ərturan İsmayılov (1428) qalib adını qazanıblar.

Qızlar arasında isə Şahnaz Əlizadə (8 yaş), Nigar Qənbərli (10 yaş), Nəsrin Cəfərli (12 yaş, 1194) və Azərin Cəfərli (14 yaş, 1183) öz yaş qruplarında hamıdan güclü olublar.

Sonda qalib şahmatçılara hədiyyə və pul mükafatları təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

# Voleybol birinciliyi keçirilib

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar muxtar respublikanın ali təhsil müəssisələrinin tələbələri arasında voleybol üzrə muxtar respublika birinciliyi keçirilib.



Olimpiya sistemi üzrə keçirilən birincilikdə 6 komanda mübarizə aparıb.

Birinciliyin final görüşündə "Naxçıvan" və Naxçıvan Dövlət universitetlərinin komandaları üz-üzə gəlib. Daha baxımlı oyun sərgiləyən birincilər yarışın qalibi adını qazanıblar. Naxçıvan Müəllimlər İnstitutunun komandası isə muxtar respublika birinciliyini üçüncü pillədə başa vurub.

Qeyd edək ki, qalib komandalar və komanda üzvləri noyabrın 16-da Gənclik Mərkəzində keçiriləcək tədbirdə mükafatlandırılacaqlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunmalıdır

Ötən illərin təcrübəsi göstərir ki, bəzi sakinlər hələ də təbii qazdan, ümumiyyətlə, qaz cihazlarından istifadə edərkən təhlükəsizlik qaydalarına tam əməl etmirlər. Onlar standartlara uyğun olmayan, istehsal mənşəyi bilinməyən qaz sobalarından və suqızdırıcılardan istifadə edir, qaz xətlərinin özbaşına çəkilməsi və qaz cihazlarının yerinin dəyişdirilməsi, təmiri və əlavə qaz cihazlarının quraşdırılmasını tələblər çərçivəsində həyata keçirmirlər. Nəticədə, bədbəxt hadisələr baş verir.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bütün bunları nəzərə alaraq qaz cihazları və qaz təsərrüfatı ilə bağlı təhlükəsizlik qaydalarının tələblərini bir daha nəzərə çatdırır, aşağıdakı təhlükəsizlik qaydalarına əməl olunmasını vacib hesab edir:

– Qaz təsərrüfatının mövcud olduğu sahələrdə yangın, partlayış və zəhərlənmə kimi arzuolunmaz hallardan qorunmaq üçün mülkiyyət formasından asılı olmayaraq, hər bir təşkilatın, həmçinin hər bir vətəndaşın bir sıra qaydalara, xüsusən də yanğın təhlükəsizliyi qaydalarına əməl etməsi zəruridir. Həmin cihazların xətlərində özbaşına dəyişiklik etmək, təhlükəsizlik qurğusunu çıxarmaq, rezin şlanqla qaz xəttinin çəkilişinə yol vermək olmaz. Onların quraşdırılması, yerinin dəyişdirilməsi və qaz xətlərinin çəkilişi yalnız bu sahə üzrə mütəxəssislər tərəfindən həyata keçirilməlidir.



– Qaz kəmərlərindən, qaz balon və cihazlarından qazın sızmasını yoxlamaq üçün açıq oddan istifadə etmək qəti qadağandır. Bundan ötrü yalnız sabun məhlulundan istifadə edilməlidir.

– Vanna otağında qazla işləyən suqızdırıcı cihaz quraşdırmaq olmaz. Hamam otağına hava daxil olması üçün qapının aşağısında deşiklər olmalı, nəfəslik açıq saxlanılmalı, ventilyasiya kanalı daim işlək vəziyyətdə olmalıdır.

– Yaşayış evləri və mənzillərdə qaz cihazlarını işlək vəziyyətdə qoyub yatmaq, sobaların həddindən artıq qızmasına yol vermək, onların istifadəsini azyaşlı uşaqlara etibar edib evdən çıxmaq olmaz. Mənzili tərk edərkən qaz cihazlarını söndürməli, qaz borularının ventilləri bağlanılmalıdır.

– Mətbəxdə qaz pilətəsi və suqızdırıcı quraşdırılarkən otağın həcmi nəzərə alınmalıdır. Belə ki, qaz cihazları quraşdırılan mətbəx otağının hündürlüyü 2,2 metrdən az olmamalı, pəncərə açıq nəfəslik və havadəyişmə kanalı ilə təmin edilməlidir. Yaşayış evlərində qaz cihazlarından yanma məhsullarının xaric olunmasına diqqət yetirilməlidir, qaz cihazlarının tüstü boruları digər məişət cihazlarının borularına qoşulmamalıdır.

– Qaz cihazlarının istismarı zamanı əhalinin üzləşdiyi xoşagəlməz hadisələrdən biri də dəm qazı ilə zəhərlənmədir. Dəm qazı ilə zəhərlənmə daha çox hava təchizatı pis olan otaq və qarajlarda, habelə standartlara uyğun olmayan və kustar üsulla hazırlanan qaz sobaları və suqızdırıcıları istismarı zamanı, həmçinin tüstü bacaları və borularının işlək vəziyyətdə olmamasından baş verir. Qaz sobaları və suqızdırıcılardan tüstünün xaric edilməsi üçün standartdan kənar və tez qatlanan borulardan istifadə etmək olmaz. Bunun üçün yalnız düzaxımlı metal borulardan istifadə olunmalı və eyni zamanda tüstü boruları binaların dam örtüyündən 70 santimetr hündürlükdə quraşdırılmalıdır. Dəm qazının yaranmaması üçün otaqlar tez-tez havalandırılmalı, tüstü boruları küləyin istiqaməti nəzərə alınmaqla quraşdırılmalı, çıxışı tutulmamalıdır. Həmin borular və bacalar hər 2 aydan bir təmizlənməli, onların sazlığı daim yoxlanılmalıdır.

– Yadda saxlamaq lazımdır ki, istənilən mağazadan qaz cihazını alan zaman onun sənaye üsulu ilə hazırlanmasına və avtomatik təhlükəsizlik qurğusu ilə təchiz olunmasına diqqət yetirmək lazımdır. Həmçinin cihazları alarkən uyğunluq sertifikatını, texniki pasportunu və Azərbaycan dilində işlətmə təlimatını satışı həyata keçirən mağaza sahiblərindən tələb etmək vacibdir. Çünki partlayış, yanğın və dəm qazı ilə zəhərlənmə kimi xoşagəlməz hadisələrin əksəriyyəti bu qaydaları bilməməkdən və ya onlara riayət edilməməsi səbəbindən baş verir. Bunun üçün cihazın istismar qaydalarını, tüstü borusunun düzgün quraşdırılmasını, ən vacibi isə hansı şəraitdə normal rejimdə işləməsi məsələlərini dəqiq bilmək və yadda saxlamaq lazımdır.

Qazla əlaqədar təhlükəsizlik qaydalarını hamı bilməli, ona hər bir vətəndaş ciddi əməl etməlidir. Unutmamalıyıq ki, bu qaydalara əməl etməməklə biz zəhərlənmə, yanğın, partlayış təhlükəsi yaradır, özümüzü, ailə üzvlərimizi, ətrafdakı insanları bədbəxt hadisələrə düçar edirik.

Qaz cihazları ilə bağlı hər hansı təhlükə ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin **"112"** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **"101"** xidmətinə məlumat verilməlidir. Unutmayın ki, təhlükəsizliyiniz öz əlinizdədir.

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 830